# Nəriman Həsənzadə - 75

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Böyük salonunda xalq şairi, əməkdar incəsənət xadimi, professor Nəriman Həsənzadə ilə görüş keçirildi. Tələbələrin arzusu, universitet rəhbərliyinin təşəbbüsü ilə keçirilən ədəbi görüşü giriş sözü ilə açan ADPU-nun rektoru, AMEA-nın müxbir üzvü, riyaziyyat elmləri doktoru, professor Yusif Məmmədov məzmunlu və yığcam çıxışında xalq şairi Nəriman Həsənzadənin keçdiyi həyat və

## Şairlə görüş



yaradıcılıq yoluna təhlili bir nəzər salaraq onun Azərbaycan milli poeziyasındakı özünəməxsus, bənzərsiz yerindən və mövqeyindən danışdı. Natiq öz çıxışını N.Həsənzadənin ağrılı-acılı taleyindən gələn təsirli epizodlar və yaradıcılığından gələn lirik-emosional nümunələr üzərində qurmaqla onu çağdaş poeziyamızın görkəmli simalarından biri kimi dəyərləndirdi. Sonra Y.Məmmədov N.Həsənzadənin həyat və yaradıcılığı ilə bağlı məruzə etmək üçün sözü professor Buludxan Xəlilova verdi.

B.Xəlilov şairin ömür-gün tarixçəsini vərəqləyib yaxın-uzaq keçmişə bir ekskurs etməklə onun böyük insan və böyük ədib anlayışlarını özündə cəmləşdirən portretini yaratdı. Məruzədə N.Həsənzadə poeziyas,ına xas olan sadəlik, obrazlılıq, konkretlik, həyati həqiqəti bədii həqiqətə çevirmək ustalığı və bunların hamısını öz "ağuşuna alan" səmimiyyət haqqında dəyərli fikir və mülahizələr səsləndi. Məruzəçi belə qənaətə gəldi ki, Nəriman Həsənzadə 20-ci əsrin ələyindən ələnib çıxmış və 21-ci əsrin ələyində üzü ağ ələnən bir şairdir.

Bu arada ADPU-nun tələbələri — xüsusən filologiya fakültəsində təhsil alan gənclər maraqlı suallarla xalq şairinə müraciət etdilər. Təbiətən zarafatcıl insan olan N.Həsənzadə bu sualları cavablandırarkən də yumorsuz keçinmədi...

Əslən Güney Azərbaycandan olan cavan şair Aqşin Ağkəmərli Tehranda N.Həsənzadənin onun təşəbbüsü ilə nəşr edilən kitabının hansı çətinliklərlə qarşılaşmasından və o taylı yurddaşlarımızın bu kitabdakı şeirlərə isti münasibətindən danışdı. Sonra Bakıda olub görkəmli şairin qayğısını görən Aqşin o illərdən yadda qalan maraqlı xatirələrini də söylədi.

Tənqidçi-ədəbiyyatşünas, f.e.d., professor Nizaməddin Şəmsizadə N.Həsənzadə yaradıcılığının səciyyəvi, özünəməxsus cəhətlərindən danışaraq söz sənətkarının ritorikadan, yersiz pafosdan uzaq həzin lirizmini yüksək dəyərləndirdi. Digər tənqidçi Qurban Bayramov isə N.Həsənzadə poeziyasını "səmimiyyət poeziyası" adlandırdı.

Professor Qəzənfər Paşayev şairin poeziyasındakı sənətkarlıq xüsusiyyətlərindən, təkcə ədəbi deyil, elmi sahədəki uğurlarından da söz açaraq onun həqiqi mənada vətəndaş-şair, təəssübkeş-ziyalı olmasını konkret nümunələrlə görüş iştirakçılarının diqqətinə yetirdi. Görüşdə "Kredo" qəzetinin baş redaktoru Əlirza Xələfli, tədqiqatçı Sona Xəyal və b. çıxış edərək N.Həsənzadəyə həsr etdikləri şeirlərini oxudular. Beləcə, bir payız gününün novqatına köklənmiş söz bayramının son akkordları Nəriman Həsənzadənin özü tərəfindən tamamlandı. İçində tufan yatan şeirlərini pıçıltıyla oxuyan xalq şairi bu tədbiri düzənləyənlərə və bütün iştirakçılara dərin təşəkkürünü bildirdi.

**A.Savalan**